Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

# Azərbaycanda milli və dini tolerantlıq ən yüksək səviyyədə qorunur

**Azərbaycan bu gün bütün müsbət elementləri, göstəriciləri ilə dünyada fərqlənir, örnək ölkələrdən biri kimi xarakterizə edilir. Bura istər ölkədə fikir, söz azadlığı, siyasi plüralizmin inkişaf etdirilməsi, istər insan hüquq və azadlıqlarının qorunması, istərsə də digər demokratik prinsip və normaları aid etmək olar. Həmçinin dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi baxımından da Azərbaycan qlobal miqyasda həm regiona, həm də dünya ölkələrinə nümunə, örnəkdir. Belə bir arqumentlə çıxış etmək üçün kifayət qədər əsas da vardır.**

İlk növbədə Azərbaycanda yaşayan xalqların say tərkibi və onların müxtəlifliyinə nəzər yetirmək kifayətdir ki. Azərbaycanda milli tolerantlığın olduğunu söyləyək. Belə ki, günümüzdə ölkəmizdə onlarla etnik xalq yaşayır ki, bu sıraya yəhudilər, talışlar, kürdlər, tatlar, avarlar, saxurlar, Şahdağ xalqları, ləzgilər, rutullar, molokanlar, inqiloylar, qaraçılar, assiriyalılar, udilər, almanlar, ruslar daxildir. Burada bir faktı qeyd etmək yerinə düşər ki, adlarını qeyd etdiyimiz etniklər Azərbaycan vətəndaşı olaraq dövlətin yaratdığı bütün imkanlardan yararlana, istifadə edə bilirlər. Bununla yanaşı hər bir etnik xalqa öz dilində yazmaq, təhsil almaq, nəşrlər buraxmaq, öz mədəniyyətlərini yaşatmaq, onu inkişaf etdirmək imkanı da verilir və həmin imkanlardan da Azərbaycanda yaşayan etniklər kifayət qədər geniş istifadə edərək milli tolerantlığımızı təcəssüm etdirirlər. Bütün bunlar azmış kimi onların müqəddəs bayramlarında dövlət səviyyəsində təbrik ünvanlanır, milli bayramlarını qeyd etmək üçün hər bir şərait yaradılır. Paralel olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci Vitse-prezident Mehriban xanım Əliyeva respublikanın ayrı-ayrı bölgələrinə səfərlər zamanı həmin regionlarda yaşayan etniklərlə də görüşür, onların problemləri, qayğıları ilə maraqlanır. Məsələn, cari il, may ayının 15-də Qəbələyə səfəri çərçivəsində Nic qəsəbəsində olub, burada yaşayan udilərlə görüşüb. Eləcə də eyni münasibəti Qubada yaşayan dağ yəhudiləri, İsmayıllının İvanovka kəndində yaşayan ruslara şamil etmək olar.



Azərbaycan dövlət başçısı müxtəlif illərdə həm Qubada, həm də İsmayıllı rayonunda səfərdə olarkən Qubanın Qırmızı qəsəbə massivində yaşayan dağ yəhudiləri, həmçinin İsmayıllının İvanovka kəndində yaşayan ruslarla görüşüb, onların qayğıları ilə maraqlanıb ki, bu da Azərbaycanda milli tolerantlığın ən yüksək səviyyədə olduğunun göstəricisidir. Burada bir məqamı da qeyd etmək yerinə düşər. Belə ki, Azərbaycanda sovetlərdən qalan kolxoz-sovxoz idarəçiliyi müstəqillik illərindən sonra ləğv olunsa da, lakin Azərbaycan dövləti öz ərazisində, daha dəqiq desək İvanovkada yaşayan etniklərə yüksək səviyyədə diqqət və qayğı göstərərək onların kolxoz idarəçiliyinin davam etməsinə yaşıl işıq yandırıb. Bu gün Azərbaycanda yeganə kolxoz idarəetmə üsulu məhz İvanovkadadır ki, bu da etniklərə olan yüksək münasibətdən irəli gəlir.

Qeyd etdiyimiz kimi təkcə dövlət başçısı İlham Əliyev deyil, eyni zamanda dövlətin digər yüksək rəsmiləri, Birinci vitse-prezident Mehriban xanım Əliyeva, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu da daim Azərbaycanda yaşayan etniklərin problemləri ilə maraqlanıb, həmin problemlərin həlli istiqamətində real addımlar atıblar. Bu mənada 2019-cu ilin sentyabr ayında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın İsmayıllı rayonunun İvanovka kəndinə səfərini qeyd etmək yerinə düşər. Belə ki, həmin səfər zamanı İsmayıllı rayonunun İvanovka kəndindəki Mədəniyyət Sarayının əsaslı təmirdən sonra açılışı olub. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva açılışda iştirak ediblər. Məlumat üçün qeyd edək ki, İvanovka Mədəniyyət Sarayı 1985-ci ildə tikilib. Binada uzun müddət əsaslı təmir işləri aparılmadığından yararsız vəziyyətə düşmüşdü və mədəniyyət müəssisəsi fəaliyyətini dayandırmaq məcburiyyətində qalmışdı. Prezident İlham Əliyevin 2018-ci ilin sentyabrında imzaladığı Sərəncama əsasən İvanovka kənd Mədəniyyət Sarayının əsaslı təmiri, zəruri avadanlıq və inventarlarla təmin edilməsi üçün Prezidentin Ehtiyat Fondundan İsmayıllı Rayon İcra Hakimiyyətinə 2,5 milyon manat vəsait ayrılıb, binanın əvvəlki memarlıq üslubu saxlanmaqla əsaslı təmir edildi. Burada akt, banket zalları, musiqi məktəbinin fəaliyyət göstərdiyi otaqlar, rəqs salonu, kitabxana əvvəlki görkəmi saxlanılmaqla əsaslı təmir olunub.

Azərbaycan həm milli, həm də dini baxımdan tolerant ölkə olduğunu atdığı addımlarla sübuta yetirir. Ölkəmizdə mövcud olan qeyri-islami ibadət yerləri, kilsə və sinəqoqların təmir edilməsi fonunda bunu aydın görmək mümkündür. Azərbaycan dövləti öz ərazisində yaşayan etniklərin, başqa dinlərin nümayəndələrinin öz ibadətlərini maneəsiz, problemsiz şəkildə həyata keçirmələri üçün hər cür imkan yaradır, hətta onlara məxsus olan ibadət məkanları da yüksək səviyyədə təmri edilərək onların ixtiyarına verilir. Ən son Qəbələ rayonunun Nic qəsəbəsində yerləşən Müqəddəs Məryəm Ana kilsəsinin təmir edilərək istifadəyə verilməsi onunda bunu aydın görmək mümkündür. Məlumat üçün qeyd edək ki, sözügedən kilsə bu ilin may ayında, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Qəbələyə səfəri çərçivəsində təmirdən sonra istifadəyə verilib. Müqəddəs Məryəm Ana kilsəsi 2019-cu ildə Heydər Əliyev Fondu tərəfindən bərpa olunmağa başlanıb və 2020-ci ilin noyabr ayında bərpa işləri başa çatdırılıb.

Bütün bu sadaladığımız amillər onu deməyə əsas verir ki, Azərbaycanda milli və dini tolerantlıq ən yüksək səviyyədə qorunur və inkişaf etdirilir.

**Süleyman İsmayılbəyli**

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap edilmişdir***